# Yeniyetməlik yaş dövrünün psixoloji xüsusiyyətləri

**Kübra Nazim qızı Mehdiyeva**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*
**E-mail:** kubra.mehdiyeva@mail.ru

**Rəyçilər:** psixol.ü.f..d. G.H. Əlixanova,
p.ü.f.d., dos. Z.İ. Əliyeva

**Açar sözləri:** yeniyetməlik yaş dövrü, yaş psixologiyası, özünüdərk, çağalıq dövrü, ziddiyyətlər, körpəlik yaş dövrü, keçid dövrü, ünsiyyət psixologiyası

**Ключевые слова:** подростковый период, возрастная психология, самосознание, период младенчества, противоречия, детский период, переходный период, психология общения

**Key words:** age period of teenagers, age psychology, self-cognition, period of infantry, contradictions, transition period, psychology of communication

Hər bir kəsə sadə görünən yaş kateqoriyası əslində geniş və mürəkkəb anlayışdır. Yaş insanın, ömür tarixini, inkişaf və yetişməsini, bioloji, psixoloji, sosioloji cəhətdən formalaşmasını ifadə edən bir anlayışdır. İnsanın yaş dövrü dəyişdikcə onun xarakterində, görünüşündə də müəyyən dəyişikliklər özünü göstərir. Bu zaman insanın psixi xüsusiyyətlərində həm kəmiyyət, həm də keyfiyyət dəyişiklikləri baş verir. Pedaqoji – psixoloji ədəbiyyatı araşdırarkən məlum olur ki, bu dövrün məhz yeniyetməlik dövrü adlandırılması aşağıdakı amillərlə sıx bağlıdır:

— Bu dövrdə uşaq şəxsiyyətinin inkişafında baş verən bir çox yetkinlik, dəyişkənlik, və törəmələrin sayəsində şagirdin təlim və tərbiyəsində, rəftar və davranışında müxtəlif tipli çətinliklər: şıltaqlıq, inadkarlıq, kobudluq, qapalılıq, adamdan qaçmaq və s. kimi keyfiyyətlər meydana gəlir. Valideyn çətinliklə qarşılaşır, sınanılmış tərbiyə üsulu kömək etmir, cəza qətiyyən səmərə vermir, valideyn uşaqla “ümumi dil” tapa bilmir.

— Yeniyetmə get-gedə valideynlərindən “uzaqlaşır”, qapalı şəxsi həyat yaşamağa meyl edir. Bu dövr ən tərəddüdlü, böhranlı və müvazinətsiz yaş dövrdür. Yeniyetmə başqalarının təsirindən daim uzaqlaşmağa, qapalılığa cəhd göstərir, adamlarla ünsiyyətdə olmaqdansa kitablara, mütailiəyə daha çox meyl edir.

— Yeniyetmə valideynlər, müəllimlər, həm də özü üçün ən çətin obyektə çevrilir. Bu yaş dövründə uşağın anatomok-fizioloji və psixi inkişafında, iradi-emosional və əqli həyatında nəzərə çarpacaq ciddi dəyişikliklər baş verir.

— Yeniyetmənin tərbiyəsini, böyüklərlə qarşılıqlı münasibətlərini tənzim edərək, həyata keçirmək üçün onun fizioloji inkişaf xüsusiyyətləri nəzərə alınmalıdır. Orqanizmində baş verən fizioloji proseslərin mahiyyətilə yaxından tanışlıq onun təlim və tərbiyəsini lazımi istiqamətdə tənzim və idarə etmək imkanı yaradır.

Yeniyetmənin fizioloji inkişaf xüsusiyyətlərini nəzərə almadan onun tərbiyəsini, böyüklərlə qarşılıqlı münasibətlərini tənzim etmək və həyata keçirmək imkan xaricindədir. Yeniyetməlik dövrü boyun sürətlə inkişafı, orqanizmdə gedən maddələr mübadiləsinin yüksəlməsi, daxili sekresiya vəziləri fəaliyyətinin kəskin surətdə güclənməsi və cinsi yetişkənliyin baş verməsi ilə xarakterizə olunur. Uşaq yeniyetməlik dövrünə qədəm qoyduğu andan onun orqaniz-

mində əsaslı dəyişikliklər baş verir: hipofiz və qalxanabənzər vəzilərin fəaliyyəti intensivləşir ki, bunun sayəsində orqanizmdə maddələr mübadiləsi yüksəlir, bədənin aşağı və yuxarı ətrafları uzununa sürətlə inkişaf, hərəkətləri yöndəmsiz, kobud və qaba olur. Yeniyetməlik dövründə nəzərə çarpan ən mühüm cəhətlərdən biri fiziki inkişafla əlaqədar cinsi yetişkənliyin baş verməsidir.

Yeniyetməlik dövründə nəzəri cəlb edən cəhətlər özünüqiymətləndirmə, ətrafdakı adamlara tənqidi münasibət, müstəqilliyin artması və "yaşlılığa" meyl, kollektiv həyat normalarına tabe olmaq bacarığının formalaşmasıdır. Yeniyetmə ünsiyyət prosesində müxtəlif şəraitlərdə ünsiyyət tərzlərini mənimsəyir. Bu dövrdə oğlan və qızlar bir-birilə maraqlanmağa başlayırlar. Onlarda bir-birinin xoşuna gəlmək meyilləri təzahür edir [4, s. 496]. Yeniyetməlik yaş dövründə əsas psixoloji xüsusiyyətlərdən biri də yeniyetmədə “Mən” konsepsiyasının formalaşmasıdır.

Yeniyetməlik yaş dövründə uşağın psixi və fizioloji inkişafında da ciddi dəyişikliklər baş verir. Yeniyetməlik dövrü xarakterin formalaşmasında önəmli mərhələdir. Xasiyyətin iradi inadkarlıq, qətiyyət, məqsədə çatmaq əzmi, çətinlikləri dəf etmək bacarığı nəzərə çarpacaq dərəcədə inkişaf edir. Yeniyetməlik yaşı dövründə oğlan və qızların fiziki və psixi inkişafında müxtəlif keyfiyyət dəyişiklikləri baş verir. Yeniyetmənin sinir sisteminin vəziyyəti dəyişir.

Yeniyetmə yaşı dövründə fiziki inkişafın əsas faktorlarından biri cinsi vəzilərin fəaliyyətə başlaması prosesin iqlim şəraitindən, etnoqrafik amillərdən də asılıdır. Alimlər müəyyən ediblər ki, son dövrlərdə akselarasiya hadisəsi uşaqların cinsi yetişkənliyinə təsir göstərir.

Bu dövrdə bədənin formasında baş verən bu dəyişikliklər yeniyetmədə müəyyən psixoloji effektlər yaradır. O, özünün xarici görünüşündə baş verən dəyişikliklərdən utanır, müəyyən komplekslər yaşayır. Ətrafdakıların diqqətini özündən yayındırmağa çalışır. Bu dəyişikliklər həmçinin yeniyetmənin ailədə, məktəbdə, dostları arasındakı davranışlarına təsirini göstərir. Onlarda tez ruhdan düşmə, yorulma halları baş verir. Ətrafdakı insanlar, valideynlər, müəllimlər bəzən bunun səbəblərini düzgün qiymətləndirə bilmirlər. Onlar birdən-birə baş verən dəyişikliyi anlaya bilmirlər. Xüsusilə valideynlər uşaqlarının səbirsiz, kobud olmalarından şikayətlənirlər.

Baş verən fizioloji, psixoloji dəyişikliklər yeniyetmələrin ətrafdakılarla münasibətində neqativ hallar yaradır, qarşılıqlı münasibətlərdə anlaşmazlığa gətirib çıxarır. Onlar artıq özündən böyüklərin sözlərini dinləmir, məsləhətlərini qəbul etmirlər, balacalara göstərişlər verməyə meyillənirlər. Ancaq bu yaş dövründə özünü göstərən kobudluq, mənfi xüsusiyyətlər keçici xarakter daşıyır. Yeniyetməlik yaşı dövründə uşaqlar daha çox sərbəstliyə can atırlar və sərbəstliyi həyata keçirə bilmədikdə aqressiya halları təzahür edir.

Aparılan çoxsaylı araşdırmalar göstərir ki, “məktəb nevrozları”na ən çox bu yaşlı uşaqlar arasında rast gəlinir. Əsəbi gərgin hallar xüsusən imtahanlar qabağı özünü büruzə verir. Yeniyetməlik yaşlarında özünüdərketmənin yeni səviyyəsi nəzərə çarpır. Yeniyetmə oğlan və yaxud qız öz şəxsiyyəti ilə daha çox maraqlanır. Onda öz mənəvi aləmini, öz şəxsi keyfiyyətlərini qiymətləndirmək tələbi yaranır. Bununla əlaqədar yeniyetmənin ünsiyyət dairəsi genişlənir, o yoldaşlarından kimi isə təqlid edir, ideal seçdiyi adamın səviyyəsinə yüksəlməyə çalışır, onu anlaya biləcək, sevincinə, kədərinə şərik olacaq adam axtarır. Yeniyetməlik yaş dövründə ünsiyyət prosesi o qədər vacib hal alır ki, təlim ikinci plana keçir. Bu yaş dövründə onlarda özünütəsdiqləmə istəyi güclü olur. Ətrafdakı insanlar tərəfindən başa düşülmədikdə kənar qruplara meyl edirlər

Yeniyetməlik yaş dövrünü yaşayan uşaq özünə ideal seçir. Bu yaş fərqlərinə görə dəyişir. Kiçik yaşlı yeniyetmələrdə ideal ata, baba, böyük qardaş obrazıdırsa, böyük yaşlı yeniyetmə-

lərdə bu ideal hər hansı aktyor, film ulduzu və s. olur. Bu obraz onların özünütərbiyə amilinə təsir göstərir. Psixoloqların fikrincə, yeniyetməlik yaşı dövründə həmdə yeniyetmələr öz davranışlarını müşahidə edə bilir, özlərini, öz davranışlarını görmə, analiz etmə kimi xüsusiyyətlərə malik olurlar. Yeniyetmə bu zaman ətrafdakılarla özünü müqayisə edir, mühakimələr yürüdür, fikirləri təhlil edir. Mənlik şüurunun formalaşması onun bütün həyatına, ətrafdakılarla davranışlarına, hadisələri qiymətləndirməsinə, analiz etməsinə təsir göstərir. Əsasən bu yaş dövründə yeniyetmələr özləri öz həyatları haqqında yüksək fikirdə olurlar, lakin təsəvvürləri ilə reallıq uyğun gəlmədikdə özlərini, öz heysiyyatlarını təhqir olunmuş hesab edirlər və buda ətrafdakılarla onlar arasında münaqişələrin yaranmasına gətirib çıxarır.

Yeniyetmələrin əsas psixi keyfiyyətlərindən biri də əxlaqi hisslərə yiyələnmə, əxlaqi şüur vasitəsilə etik davranışlara və təsəvvürlərə yiyələnmədir .Yeniyetmələrdə əxlaqi və mənlik şüurun formalaşması eyni zamanda onlarda digər bir hissin “yaşlılıq hissi”nin formalaşmasına gətirib çıxarır. Bu hissin yaranması yeniyetmələrdə adi və təbii hal kimi qəbul olunur. Yaşlılıq hissinin yaranması o deməkdir ki, yeniyetmə artıq böyüyüb, özünü yaşlılar sırasına aid edir, dinləyici uşaq mövqeyindən çıxır, sərbəstliyə can atır, böyüklərlə bərabərhüquqlu olmağa çalışır. Böyüklər yeniyetməni hələ də uşaq hesab edir, və ona həmin yetkin şəxs kimi yox, uşaq kimi yanaşır. Bu cür vəziyyət yaşandıqda yeniyetmələr bir növ böyüklərə öz etirazını bildirirlər.

**Məqalənin aktuallığı.** Yeniyetməlik dövrünün psixoloji xüsusiyyətlərinin əsas təzahürlərini müəyyənləşdirmək, müasir psixologiyanın elmi-nəzəri tələbləri səviyyəsində həmin problemlərin təhlilini verməkdən ibarətdir.

**Məqalənin elmi yeniliyi.** Yeniyetməlik dövrünün psixoloji xüsusiyyətləri probleminin təhlili, özünüdərk, özünüqiymətləndirmə, işgüzar fəaliyyət və düzgün ünsiyyətə bələd olmağa köməklik göstərmək yollarını müəyyənləşdirməkdən ibarətdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən elmi yaradıcılıq işində bu mövzu ilə maraqlananlar, eləcə də ali və orta ixtisas məktəblərinin tələbə və magistrləri istifadə edə bilər.

## Ədəbiyyat

1. Baxşəliyev Ə.T. Azərbaycan milli-mənəvi dəyərlərinin sosial-psixoloji mahiyyəti. Bakı: ADPU-nun nəşri, 2011, 401 s.
2. Əliyeva S.N. Yeniyetməlik yaş dövründə baş verən böhran problemlərinin sosial psixoloji mahiyyəti. Bakı: Maarif, 2017, 307 s.
3. S.İ.Seyidov və M.Ə.Həmzəyevin elmi redaktorluğu ilə.Psixologiya (dərslik). Bakı: Nurlan, 2007, 678 s.
4. Qədirov Ə. Yaş psixologiyası. Bakı: Maarif, 2002, 386 s.
5. Хилько, М.Е. Возрастная психология: М.: Юрайт, 2013, 200 с.
6. Хухлаева, О.В. Психология развития и возрастная психология: Учебник для бакалавров. М.: Юрайт, 2013, 367 с.

**К. Н. Мехтиева**

## Психологические особенности подросткового периода


### Резюме

Подростковый период с социальной и психической точек зрения это период перехода с одного этапа жизни к другой –с детства ко взрослой жизни. Подростковый период важный и сложный период развития. Подростковый период важный этап в формировании характера. В этом периоде заметно развивается характер упрямства, настойчивость, желание достижения цели, способность преодоления трудностей у подростков. В подростковом периоде происходят качественные изменения в физическом и психическом развитии мальчиков и девочек. Происходят изменения в нервной системе подростка.


**K.N. Mehdiyeva**

## Psychological Peculiarities of the Age Period of Teenagers


### Summary

Age period of teenagers from the view of psychological and social qualities is a period of transition-transition from the stage of childhood into the stage of adultery.

The period of teenagers is an important and difficult period of teenagers. The period of teenagers is an important stage in the formulation of human character. In this period the features of willful persistence determination, desire to reach the goal, the ability to prevent difficulties conspicuously develop. In the period of the age of teenagers different physical and moral changes take place in the development of boys and girls. The nervous system of teenagers undergo changes.


**Redaksiyaya daxil olub:** 25.11.2019